Elm .- 2026.-9 yanvar (№ 1).- S.4.

# Oğuz türkcəsinin Tacəddin Əhmədinin "Cəmşidnaməsi"ndən görünən tarixi topoqrafiyası




**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin AMEA-nın 80 illik yubileyində proqram xarakterli çıxışı, elmin inkişafı ilə bağlı irəli sürdüyü mühüm müddəalar yalnız Akademiyanın deyil, bütövlükdə Azərbaycan elminin yaxın gələcəkdə strateji inkişaf istiqamətlərini, əsas prioritetlərini və hədəflərini müəyyənləşdirdi. Məhz bunu nəzərə alaraq, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli son illər islahatlar və yeniləşmə mərhələsini yaşayan Akademiyanın cənab Prezidentin müəyyənləşdirdiyi prioritetlər əsasında yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bəyan etmişdir.**

Məlum olduğu kimi, iİctimai-humanitar elmlərin inkişafı ilə bağlı cənab Prezidentin irəli sürdüyü mühüm prioritetlərdən biri dilçilik sahəsindəki tədqiqatların inkişafı ilə bağlı idi. Bu da heç də təsadüfi deyildir. Hər bir xalqın dili onun tarixi-mədəni varlığının, milli mövcudluğunun və mənəvi özgürlüyünün, hətta fiziki suverenliyinin zahiri atributu olmaqdan daha çox, məhz substansiyasıdır, mahiyyətidir, müəyyənlik keyfiyyətidir. Bu baxımdan dilin funksional mahiyyəti yalnız bir xalqın nümayəndələri arasında kommunikativ vasitə olmaqla məhdudlaşmır. O, etnosun tarixi inkişaf prosesi ərzində daha çox xalqın identiklik modeli kimi formalaşır. Buna görə də dilə metaforik olaraq etnosun tarixi yaddaşının semantik xəritəsi kimi də baxmaq mümkündür. Qloballaşmanın və virtuallaşmanın geniş yayıldığı müasir şəraitində dilin daşıdığı milli kodlar həm tarixilik, həm də perspektiv baxımından strateji səciyyə daşıyır. Ona görə də dilin tarixinin öyrənilməsi onun bu günkü funksional mövcudluğu, gələcək milli varlığın qarantı baxımından əhəmiyyətlidir.

Bu baxımdan ədəbi dil tarixinin tədqiq linqivistik araşdırma olmaqla yanaşı, milli varlığın zaman içindəki formalaşma trayektoriyasını öyrənmək deməkdir. Dilin müxtəlif mərhələlərinin elmi təhlili xalqın yaddaş kodlarının, tarixi-mədəni təcrübəsinin, mənəvi sisteminin necə təşəkkül tapdığını, hansı şərtlərdə transformasiyaya uğradığını və bu günə hansı semantik resurslarla gəlib çatdığını müəyyənləşdirməyə xidmət edir. Bu səbəbdən də ədəbi dilin müxtəlif mərhələlərinin öyrənilməsi milli kimliyin mədəni struktur kimi dərk olunması baxımından zəruridir.

Türk dilinin təşəkkül və təkamül tarixinin peşəkar səviyyədə, elmi-nəzəri əsaslarla tədqiqi bu günkü türk xalqlarının inteqrasiya perspektivləri baxımından da strateji əhəmiyyət kəsb edir. Əgər türk dillərinin ortaq qaynaqları, fonetik-morfoloji sabitlik zonaları, üslubi və leksik paralelləri ardıcıl şəkildə sistemləşdirilib konseptual şəkildə təqdim olunarsa, bu zaman müasir geosiyasi reallıqlar baxımından xüsusi aktuallıq kəsb edən inteqrasiya sadəcə siyasi-ideoloji yox, dərin mənəvi-fəlsəfi zəmində gerçəkləşər.

Türk ədəbi dil tarixinin öyrənilməsi baxımından yaxın günlərdə nəşr olunmuş AMEA Dilçilik İnstitutunun gənc əməkdaşı Arzu İsgəndərzadənin "Tacəddin Əhmədinin Cəmşidnamə məsnəvisinin tekstoloji-linqvistik tədqiqi" adlı monoqrafiyası (Bakı, "Elm və təhsil", 2025-ci il) xüsusi elmi və ictimai əhəmiyyətə malikdir. Müəllif yaxın günlərdə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müvəffəqiyyətlə müdafiə etdiyi bu əsərdə yalnız konkret bir klassik mətnin filoloji aspektdən təhlili ilə kifayətlənməyib, həm də XIV-XV əsr Oğuz türkcəsinin ədəbi norma potensialını, struktur sabitliyini və poetik funksionallığını üzə çıxararaq, ümumtürk ədəbi dilinin təkamülündə mühüm mərhələlərdən birinin elmi rekonstruksiyasını təqdim etmişdir. Müəllifin metodu tarixi-linqvistik yanaşma ilə tekstoloji analizin uzlaşdırılmasına əsaslandığı üçün bu tədqiqat türk dil tarixinin öyrənilməsində həm mənbəşünaslıq, həm də ümumiləşdiricilik baxımından diqqətəlayiq elmi hadisə səviyyəsində qiymətləndirilə bilər.

Kitab orta əsrlər türk ədəbi dilinin yazılı nümunəsi olan "Cəmşidnamə" məsnəvisinin tekstoloji əsasda tədqiqini aparmaqla klassik türk mətnşünaslığının və paleoqrafik analizin konkret nümunəsi kimi çıxış edir. Əsərin əlyazmasının qrafik xüsusiyyətlərinin, nəsx xəttinin və ortoqrafik sabitliyinin araşdırılması dil tarixinin sənədləşdirilmiş mənbə əsasında elmi rekonstruksiyasına xidmət edir.

Monoqrafiyada fonetik, morfoloji və sintaktik səviyyədə aparılan təhlillər vasitəsilə Azərbaycan-Oğuz türkcəsinin XIV-XV əsrlərdəki vəziyyəti sistemli şəkildə üzə çıxarılır. Xüsusilə fonetik-morfoloji paralelliklər, arxaik dil qatlarının və leksik arxaizmlərin mövcudluğu türk dilinin sabitlik mərhələsinə keçidinin nümunəsi kimi interpretasiya edilir.

Əsərdə işlənmiş sözlərin mənşə baxımından təsnifi və qruplaşdırılması, onların türk, ərəb və fars mənşəli olmasına dair metodoloji dəqiqliklə verilmiş təhlillər leksik təbəqələşməni ortaya qoyur. Bu cəhət, dilin yalnız daxili dinamikasını deyil, eyni zamanda mədəniyyətlərarası əlaqə və təsir mühitini də əks etdirir.

Monoqrafiyada "Cəmşidnamə"nin ümumtürk ədəbi dil məkanındakı yeri və funksiyası xüsusi vurğulanır. Əsər bir tərəfdən Anadolu Oğuz ədəbi dilinin daşıyıcısı kimi, digər tərəfdən isə ümumtürk dil sistemində ortaq normaların ifadə forması kimi qiymətləndirilir. Bu isə monoqrafiyanı dilin arxaik yaddaşını üzə çıxaran və ümumi tarixilik şüuruna töhfə verən bir araşdırma nümunəsinə çevirir.

Tədqiqatda dilin tarixi inkişafının sinxron və diaxron kəsişmə nöqtələri xüsusi analitik metodla təhlil olunur. Mətnin sinxron quruluşunda (müəyyən bir zaman kəsiyindəki normativ vəziyyət) arxaik və çağdaş elementlərin yanaşı mövcudluğu, onun diaxron (tarixi) təhlili üçün zəngin material bazası yaradır. Beləliklə, "Cəmşidnamə" vasitəsilə dilin zaman içindəki transformasiyası elmi-faktoloji şəkildə izlənilir.

Müəllifin leksik-semantik səviyyədə apardığı müşahidələr türk dilinin ilkin kök qatının qorunub saxlanılması, qədim söz faktlarının çağdaşlığa keçid mexanizmini aşkara çıxarır. Bu isə yalnız dilçilik baxımından deyil, türklərin ümumi mənəvi-mədəni identikliyinin təhlili üçün də mühüm dəyər daşıyır.

Monoqrafiyada tətbiq olunan metodoloji çərçivə - tarix-müqayisəli, tekstoloji və deskriptiv-statistik yanaşmaların vəhdəti tədqiqatın həm fundamental, həm də praktik əhəmiyyətini artırır. Hər bir elmi nəticə konkret dil faktı ilə əsaslandırılır, təhlil olunan obyektlər terminoloji dəqiqliklə sistemləşdirilir.

Beləliklə, Arzu İsgəndərzadənin bu tədqiqatı, təkcə bir klassik abidənin tədqiqi deyil, həm də Azərbaycan və ümumtürk dilçiliyi üçün nəzəri, metodoloji və mənbəşünaslıq baxımından mühüm töhfədir. "Cəmşidnamə" bu kontekstdə yalnız yazılı mətn deyil, həm də türk dilinin tarixi yaddaşının canlı ifadəsidir. Monoqrafiya vasitəsilə həmin yaddaşın dil faktları şəklində elmi şərhi və ümumiləşdirilməsi həyata keçirilmişdir. Bu isə əsəri və onun tədqiqini türkologiyada metodoloji səviyyədə yeni mərhələyə daşıyır.

Arzu İsgəndərzadənin elmi fəaliyyəti ilə paralel şəkildə həyata keçirdiyi elmi-təşkilati və ictimai fəaliyyətlər onu yalnız tədqiqatçı olaraq deyil, fəal bir gənc olaraq fərqləndirməyə əsas verir. AMEA Nəsimi adına Dilçilik İnstitutunun Gənclər Akademiyasının sədri kimi o, gənclərin elmi potensialının səfərbər edilməsində, intellektual mühitin dinamizminin təminində gənclərin iştirakının artırılmasında mühüm rol oynayır. Bu fəaliyyət onun təşkilati-idarəetmə səviyyəsində də özünü doğrultduğunu sübut edir.

Arzu İsgəndərzadənin elmi və elmi-təşkilati fəaliyyəti və ictimai-sosial platformalarda aktiv mövqeyi son illər AMEA-da aparılan struktur və ideoloji dəyişikliklər, xüsusən də gənclərə, intellektual nəslə göstərilən dəstək siyasəti kontekstində xüsusi əhəmiyyət kəsb edir. AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə son dövrlərdə elmi idarəetmədə həyata keçirilən gənc intellektualların potensialını qiymətləndirməyə yönəlmiş islahatlar xüsusən Gənclər Akademiyasının yaradılması, elmi tribunaların gəncləşdirilməsi, gənclər arasında akademik debat və müzakirə mədəniyyətinin formalaşdırılması Arzu İsgəndərzadə kimi istedadlı gənclərin yüksəlişi üçün münbit intellektual mühit yaratmışdır.

Arzu İsgəndərzadənin tribunada sərgilədiyi çıxış mədəniyyəti, gənc alimlər arasında təşkilatçılıq və təşviqatçılıq funksiyasını üzərinə götürməsi onu İsa Həbibbəylinin təşviq etdiyi "düşünən, təqdim edən və cəmiyyətə açılan alim" modelinə uyğunlaşdırır.

Beləliklə, Arzu İsgəndərzadə həm elmi nailiyyətləri, həm təşkilati fəaliyyəti, həm də cəmiyyətə açıq ictimai mövqeyi ilə son illər AMEA-nın yeni elmi düşüncə və idarəetmə fəlsəfəsinin - dinamik, şəffaf, yaradıcı və gənclərin potensialına əsaslanan intellektual siyasətin real təcəssümüdür. Belə gənc alim obrazları Akademiyanın sabahına inamın, elmi intellektin cəmiyyətlə sintezinin və müasir milli elmi strategiyanın uğurla həyata keçirilməsinin parlaq simvollarından biridir. Gənc alimə elmi, elmi-təşkilati və ictimai fəaliyyətində uğurlar arzulayırıq.

**Sərxan XAVƏRİ**
**filologiya elmləri doktoru**